# Yol vergisinə edilmiş dəyişikliklər barədə



Yol vergisi üzrə Vergi Məcəlləsinin 209-cu, 210-cu, 211-ci və 212.3-cü maddələrinə dəyişikliklər edilmiş, yeni 211.4-cü maddə əlavə edilmiş, 212.2-ci və 212.4-cü maddələr isə ləğv edilmişdir.

Dəyişikliklərlə əlaqədar olaraq yol vergisinin ödəyiciləri dəyişmişdir. Belə ki, artıq Azərbaycan Respublikasının ərazisində şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri vergitutma obyekti deyildir, yəni 2015-ci ildən etibarən mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi və fiziki şəxslər illik yol vergisi ödəməyəcəklər.

Dəyişiklikdən sonra yol vergisinin vergitutma obyekti:

Azərbaycan Respublikasının ərazisinə daxil olan və Azərbaycan Respublikasının ərazisini tərk edən zaman yol vergisinə cəlb olunmalı olan xarici dövlətlərin avtonəqliyyat vasitələri,

Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal edilən avtomobil benzini, dizel yanacağı və maye qazlar.

Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi onların hər litrinin topdansatış qiymətinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manat əlavə edilməklə hesablanır. İdxal olunan avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin onların hər litrinin topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manat əlavə edilməklə hesablanır. Qeyd edək ki, idxal zamanı yol vergisinin tutulmasına nəzarəti gömrük orqanları, digər hallarda vergi orqanları nəzarət edəcək.

Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan şəxslər yol vergisini aylıq olaraq hesablamalı və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq, Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə yol vergisi bəyannaməsini vergi orqanına təqdim etməklə həmin müddətdən gec olmayaraq vergini dövlət büdcəsinə ödəməlidirlər.

# Əhalinin gəlirləri 4,8 faiz artaraq 39,4 milyard manata çatmışdır

Yeni istehsal müəssisələrinin, sosial sahələrin açılması əhalinin qazanc mənbəyidir. 2013-cü illə müqayisədə ötən il əhalinin gəlirləri 4,8 faiz artaraq 39,4 milyard manata çatmışdır. Orta hesabla hər nəfərə düşən məbləğ 3,5 faiz çoxalmış, 4180,5 manat təşkil etmişdir.

Ötən ilin yanvar-noyabr aylarında sosial-iqtisadi sahədə işləyənlərin orta aylıq əməkhaqqı isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,4 faiz artaraq 442,1 manat olmuşdur. Ayrı-ayrı sahələrdə göstəricilər daha da artmışdır. Məsələn, sənayedə orta aylıq əməkhaqqı 709,5, tikintidə 626,7, nəqliyyatda 538, informasiya və rabitə sahəsində 733,5 manata çatmışdır. İstehlak mallarının qiyməti və xidmət tarifləri cəmi 1,4 faiz artmışdır. Əhalinin hər nəfərinə düşən artımın 3,5 faiz fonunda sözsüz ki, bu rəqəm yüksək deyildir.

Ötən ilin yanvar-noyabr aylarında əhalinin banklara qoyduğu əmanətlərin məbləği 10,4 faiz artaraq 7, 1 milyard manata çatmışdır. Bu göstəricilərin davamlı olaraq artımı şübhəsiz ki, 2015-ci ildə də əhalinin gəlirlərinin artmasında başlıca stimuldur.

## Qəbələ Rayon İcra Hakimiyyəti 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

**Qəbələ rayon İcra hakimiyyəti**
**1. İƏN-nin cari təmiri.**
**2. İƏN-nə maşın və avadanlıqların alınması.**
**3. İƏN-nə bərk inventarların alınması.**
***Kənd-qəsəbə uşaq bağçalarına***
**1. Bərk inventar alınması.**
**2. Yumşaq inventar alınması.**
**3. Maşın və avadanlıqların alınması.**
**4. Əsaslı təmir işlərinin görülməsi.**

Sənədlər 31 mart 2015-ci ilə qədər qəbul olunur.

## Qəbələ şəhər İnzibati Ərazi Nümayəndəliyi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

**1. Dəftərxana təsərrüfat xərci.**
**2. İdarənin digər xərci.**
**3. Cari təmir xərci.**
**4. İdarənin cari xərci.**

Katirovka sorğusu **fevral ayının 15-dək** qəbul olunur.

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Qəbələ Müalicə-Diaqnostika Mərkəzi aşağıda adları qeyd olunmuş xərc maddələri üzrə katirovka sorğusu ELAN EDİR:

**1. Dəftərxana və təsərrüfat xərcləri.**
**2. Mətbəə xərcləri.**
**3. İdarənin xərcləri.**
**4. Cari təmir.**
**5. Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması.**
**6. Ərzaq məhsullarının alınması.**

Sorğular 12 mart 2015-ci il tarixinə kimi qəbul olunur.

**Əlaqə telefonu:** 024-20-5-41-58.

**Tender komissiyası.**

## Tüntül kənd İnzibati Ərazi Nümayəndəliyi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

**1. Tüntül kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.**

Katirovka sorğusu **fevral ayının 15-dək** qəbul olunur.

## Tikanlı kənd İnzibati Ərazi Nümayəndəliyi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

**1. Tikanlı kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.**

Katirovka sorğusu **fevral ayının 15-dək** qəbul olunur.

## Elanlar

Məmmədbəyli Sevin Aləddin qızına 2005--2006-cı tədris ilində Vəndam qəsəbə 1 saylı tam orta məktəbinin IX sinfini bitirməsi ilə əlaqədar verilmiş **337649 №-li Şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyyası tərəfindən 26 fevral 2001-ci il tarixli 03 saylı qərarla Qəbələ şəhər sakini Məmmədova Gülsurə Əli qızının adına verilmiş JN-205 (kodu 40601004) **Torpağa Mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyyası tərəfindən 26 noyabr 1997-ci il tarixli 26 saylı qərarla Daşlıca kənd sakini Əliyeva Zülhəccə Mustafa qızının adına verilmiş JN-129 №-li (kodu 40608028) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayonu Böyük Pirəli kənd məscidi dini icmasının (280 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 7 fevral 2015-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

---

Qəbələ rayonu Bum qəsəbə məscidi dini icmasının (55 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 7 fevral 2015-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İcra Hakimiyyətinin kollektivi başçının birinci müavini **Abil Ağasəfova,** əmisi

**CƏLİL AĞAYEVİN**

vəfatı münasibətilə dərin hüznlə başsağlığı verir.

---

«Qəbələ» qəzetinin kollektivi rayon icra hakimiyyəti başçısının birinci müavini **Abil Ağasəfova,** əmisi

**CƏLİL AĞAYEVİN**

vəfatı münasibətilə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası FNH Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Anar Musayevə,** nənəsi

**NƏCİBƏ XANIMIN**

vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

---

Qəbələ İncəsənət məktəbinin kollektivi iş yoldaşları **Aytən Nadirovaya** və **Mətanət Ağamirzəyevaya,** əzizləri

**NƏCİBƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.